Yazan
19.08.13 14:03 -



İmza toplama kampaniyası artıq başa çatmış Az□rbaycan prezidentliyin□ növb□ti d□f□ namiz□d, Yeni Az□rbaycan Partiyasının (YAP) s□dri İlham □liyevin s□nədl□ri avqustun 20-d□ M□rk□zi Seçki Komissiyasına (MSK) t□qdim olunacaq.

Bunu açıqlamasında YAP icra katibinin müavini, deputat Mübariz Qurbanlı bildirib. O qeyd edib ki, İlham Əliyevin vərəqləri artıq tam hazırdır: "Bütün bölgələrdən daxil olan imza vərəqələri partiyanın icra katibliyində tam yoxlanılıb və artıq təqdim etmək üçün hazırdır. Lakin qanunvericiliyə görə, seçkiyə 50 gün qaldıqdan sonra imza vərəqələri MSK-ya təqdim oluna bilər. Buna görə də biz vaxtından əvvəl imza kampaniyasını başa çatdırmağımıza baxmayaraq, sabah – avqustun 20-də sənədləri MSK-ya təqdim edə biləcəyik".

İmzatoplama kampaniyasında 1000-dək partiya fəalı iştirak edib.

Xatırladaq ki, Mərkəzi Seçki Komissiyası (MSK) avqustun 10-da keçirdiyi iclasda İlham Əliyevin namizədliyini təsdiq edib.

İmza toplama kampaniyası üçün son tarix sentyabrın 9-dur. Bu tarixə qədər imza vərəqələrini təqdim edən namizədlər bu tarixdən sonra MSK tərəfdən qeydə alınaraq təbliğat-təşviqat kampaniyasına başlaya biləcəklər.